# Fransa Azərbaycanla əlaqələri daha da inkişaf etdirmək niyyətindədir



Noyabrın 3-də Milli Məclisin Sədri Oqtay Əsədov Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafanı qəbul edib.

Qonağı salamlayan Milli Məclisin Sədri öncə onu Fransa-Azərbaycan dostluq qrupunun rəhbəri təyin olunması münasibətilə təbrik etdi. İki ölkə arasındakı əlaqələrdən danışan spiker qeyd etdi ki, Azərbaycan Fransa ilə münasibətlərə böyük önəm verir. İndiyədək dövlət başçılarının etdikləri qarşılıqlı səfərlər Azərbaycan və Fransa arasında əlaqələrin inkişafında mühüm rol oynayıb. Qeyd etdi ki, Azərbaycan və Fransa arasında 52 sənəd imzalanıb. Daha bir neçə sənədə isə baxılır.

Ölkələrimiz arasında münasibətlərin qədim köklərə malik olduğunu vurğulayan Oqtay Əsədov bu səfərin ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcəyini bildirdi.

Görüş üçün təşəkkürünü bildirən Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafan Azərbaycana səfərdən və burada onlara göstərilən yüksək qonaqpərvərlikdən məmnunluğunu bildirdi. Azərbaycanla Fransa arasında əlaqələrin inkişaf etdiyini vurğulayan qonaq dostluq qruplarının əlaqələrimizin inkişafına töhfə verdiyini söylədi. Qeyd etdi ki, Azərbaycanla əlaqələrimizi iqtisadi, mədəni, humanitar sahələrdə daha da inkişaf etdirmək niyyətindədirlər.

Görüşdə gələcək əməkdaşlıq imkanları, münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolu və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*Rəşad CƏFƏRLİ,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*